**Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası üzrə 2015-ci il ərzində Vergilər Nazirliyi tərəfindən görülmüş işlər barədə**

# MƏLUMAT

| № | Tədbirin adı | **Vergilər Nazirliyi tərəfindən görülmüş işlər** | İcra müddəti |
|---|---|---|---|
| **Fəsil 2. Əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi** | | | |
| 2.3. | Sahibkarların və istehlakçıların hüquqlarının möhkəmləndirilməsi | Vergi orqanlarının sahibkarlıq subyektlərinin fəaliyyətinə qeyri-qanuni müdaxiləsinin qarşısının alınması məqsədilə hesabat dövründə Vergilər Nazirliyi tərəfindən zəruri tədbirlər müəyyənləşdirilib həyata keçirilmişdir. Bu məqsədlə nazirliyin rəsmi internet səhifəsində “Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumatın onlayn verilməsi” elektron xidmətinə qeyd edilən dövr ərzində daxil olmuş 13 müraciət müvafiq qaydada araşdırılmış və aidiyyəti üzrə icraata verilmişdir. Eyni zamanda, vergi orqanlarının əməkdaşlarının qanunsuz hərəkətləri (hərəkətsizliyi) barədə daxil olmuş 617 müraciətə (o cümlədən, 274-ü eyni və təkrar olmuşdur), habelə sistemdaxili strukturlardan daxil olmuş 24 təqdimata baxılaraq təsdiqini tapmış faktlar üzrə vergi ödəyicilərinin və vətəndaşların pozulmuş hüquqları bərpa edilmiş, müraciət edən şəxslərə mahiyyəti üzrə cavablar verilmişdir. Bu sahədə nöqsana yol vermiş 115 əməkdaş intizam məsuliyyətinə cəlb olunmuşdur (o cümlədən 62 əməkdaşa töhmət, 36 əməkdaşa sonuncu xəbərdarlıqla şiddətli töhmət verilmiş, 7 əməkdaşa xəbərdarlıq elan edilmiş, 3 əməkdaş aşağı vəzifəyə keçirilmiş, 1 əməkdaşın xüsusi rütbəsi 1 pillə aşağı salınmış və 6 əməkdaşın vergi orqanlarındakı xidmətinə xitam verilmişdir).<br>İnsan hüquq və azadlıqlarının müdafiəsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanun layihəsi hazırlanmış və aidiyyəti üzrə baxılması üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilmişdir.<br>Hesabat dövründə Vergilər Nazirliyinin Vergi Apellyasiya Şurasının | Mütəmadi |

| | | | |
|---|---|---|---|
| | | icraatında 45 müraciət olmuşdur ki, bunlardan 1 müraciət 2014-cü ildən qalmış, 44 müraciət isə 2015-ci il ərzində daxil olmuşdur. Şuranın icraatında olmuş müraciətlərdən 22-si kameral vergi yoxlaması, 15-i səyyar vergi yoxlaması, 6-sı isə operativ vergi nəzarəti, 2-isə digər məsələlərlə bağlı olmuşdur.<br>2015-ci il ərzində Şuranın icraatında olmuş 45 müraciətdən 40-na "Azərbaycan Respublikasının Vergi Məcəlləsinin", "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun, "Vergilər Nazirliyinin Vergi Apellyasiya Şurası haqqında Əsasnamə"nin və digər aidiyyəti hüquqi aktların tələblərinə uyğun baxılaraq müvafiq qərarlar qəbul edilmiş, 5 müraciət isə hal-hazırda Şuranın icraatındadır.<br>Şurada baxılaraq müvafiq qərarlar qəbul edilmiş 40 müraciətdən 18-i tam və ya qismən təmin edilmiş, 14-ü təmin edilməmiş, 4-nün icraatına xitam verilmiş, 3-ü baxılmadan saxlanılmış, 1-nin isə müddəti uzadılmışdır. Şura tərəfindən baxılmış müraciətlərdən 37-si vergi ödəyicisinin təkrar şikayəti üzrə, 3-ü isə vergi orqanının müraciəti üzrə olmuşdur.<br>Videoqəbulların təkmilləşdirilməsi məqsədilə 10 iyun 2013-cü il tarixdən "Polikom" proqramı vasitəsilə qəbulların video konfrans şəklində keçirilməsinə başlanılmış və hesabat dövrü üzrə vətəndaşlarla 14 videoqəbul təşkil edilmişdir.<br>Vergi orqanlarına daxil olmuş müraciətlərə qanunla müəyyən olunmuş müddətlərdə baxılması məsələsinin daim nəzarətdə saxlanılması nəticəsində hesabat dövründə vergi orqanlarına daxil olan bütün müraciətlər vaxtında icra edilmiş, gecikmə hallarına yol verilməmişdir.<br>Vergi orqanları tərəfindən vergi ödəyicilərində səyyar və operativ vergi nəzarəti tədbirləri Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2011-ci il tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"nin tələblərinə uyğun olaraq həyata keçirilir. Bu qayda ilə hesabat dövründə başa çatdırılan 11876 səyyar vergi yoxlaması müvafiq qanunvericiliyin tələbləri nəzərə alınmaqla təyin edilmişdir. Yoxlamalar zamanı 11331 vergi ödəyicisində vergilərin hesablanması və ödənməsində qanun pozuntuları aşkar edilmiş, 634,8 milyon manat əlavə vəsait hesablanmış və 394,0 milyon manat maliyyə sanksiyası (faizlə birlikdə) tətbiq | |

| | | | |
|---|---|---|---|
| | | edilmişdir.<br>Hesabat dövründə vergi orqanları tərəfindən vergi ödəyiciləri ilə 457 görüş keçirilmiş və 15267 vergi ödəyicisinə səyyar məlumatlandırma xidməti göstərilmişdir. Eyni zamanda vergi əməkdaşlarının hərəkət və ya hərəkətsizliyi barədə 195 Çağrı Mərkəzinə daxil olmuş 3048 şikayət və ərizə (məlumat) xarakterli müraciətlər qəbul edilərək araşdırılmışdır.<br>Vergilər Nazirliyinin rəsmi internet səhifəsindəki "Vergilər naziri ilə əlaqə" bölməsinə hesabat dövründə 1243 müraciət daxil olmuşdur.<br>Eyni zamanda vergi ödəyicilərinə xidmət mərkəzlərindən və orada xidmət göstərən təmsilçilərdən vergi ödəyicilərinin və vətəndaşların məmnun qalma səviyyəsinin ölçülməsi ilə əlaqədar hazırlanmış "Birlikdə daha yaxşı olaq!" və "Vergi orqanlarına etdiyiniz müraciətlərə baxılması Sizi qane edirmi?" mövzuları üzrə sorğular keçirilmişdir.<br>Hesabat dövründə Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə daxil olan istifadəçilərin sayı 3 692 129, "Sual-cavab" rubrikasına daxil olan sualların sayı isə 1647 olmuşdur. İstifadəçilərin axtardıqları məlumatları tez və rahat tapması üçün istifadə edilən "Onlayn bələdçi" xidməti vasitəsilə hesabat dövründə 13 467 sorğu cavablandırılmışdır.<br>Vergilər Nazirliyinin rəsmi internet səhifəsində "Vergilər nazirinin bölgələrdə qəbulu" bölməsi yaradılmışdır ki, həmin bölmədə interaktiv xəritə vasitəsi ilə hər bir rayonda keçirilən görüşün tarixi, yeri, müraciətlərin mövzuları və nəticələri barədə məlumatlar yerləşdirilmişdir. Həmin məlumatlar səhifədə cədvəl formasında da yerləşdirilmişdir.<br>Yeni yaradılmış "Maliyyə institutlarında vergi monitorinqi – PL/TMM bölməsi"ndə Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə ilə bağlı qanunvericilik aktları, beynəlxalq standartlar, şübhəli əməliyyatların aşkarlanması meyarları, sanksiya tətbiq olunan şəxslər və digər məlumatlar yerləşdirilmişdir.<br>Səhifənin "Vergi yoxlamaları: əsaslar və proseduralar" bölməsində 2014-cü il ərzində vergi ödəyicilərinin auditi sahəsində görülmüş işlər haqqında məlumat, 2014-cü il ərzində başa çatdırılmış səyyar vergi yoxlamaları barədə illik hesabat və 2014-cü il ərzində keçirilmiş operativ vergi nəzarəti tədbirləri barədə illik hesabat yerləşdirilmişdir. | |

| | | | | |
|---|---|---|---|---|
| | | “Facebook” və “Twitter” sosial şəbəkələrindəki Vergilər Nazirliyinin rəsmi səhifələrində, “Youtube” video hostinq serverində və “video.az” saytında vergi orqanlarının fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması mütəmadi olaraq həyata keçirilmişdir. Vergilər Nazirliyinin “Facebook” sosial şəbəkəsindəki səhifəsində istifadəçi marağını artırmaq məqsədilə “Məhşurlardan ismarıc var!” adlı yeni layihə təqdim edilmişdir. Layihə vasitəsilə seçilmiş məhşurların, ictimai siyasi xadimlərin, idmançıların və cəmiyyətdə tanınan simaların dilindən vergilərin təbliğinə aid şüarlar səsləndirilir. Hesabat dövrü ərzində 5 məhşurun iştirakı ilə belə video çarxlar yerləşdirilmişdir.<br>Bundan əlavə “195 Çağrı Mərkəzi”nin yaradılması və fəaliyyətə başlaması barədə, gəlir vergisi, muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi (illik və rüblük), ödəmə mənbəyində tutulan vergi, əlavə dəyər vergisi, sadələşdirilmiş vergi bəyannamələrinin doldurulma qaydaları, fakturaların əvəzləşdirilməsi, vergilərin onlayn ödənilməsi qaydaları üzrə 9 video çarxlar, “Vergilər uşaqların gözü ilə” ənənəvi rəsm və inşa müsabiqəsi keçirilmişdir” adlı süjetlər “Facebook” sosial şəbəkəsində yerləşdirilmişdir.<br>Azad Azərbaycan teleradio yayım kompaniyası ilə Vergilər Nazirliyinin birgə layihəsi olan yeni həftəlik telelayihə “İqtisadi Zona” verilişi yayıma başlanmışdır. Veriliş Azərbaycanda və dünyada baş verən ən vacib iqtisadi yeniliklərin geniş tamaşaçı kütləsinə çatdırmaqla yanaşı, xüsusi olaraq vergilərin təbliğinə xidmət edir, sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırmasını dəstəkləyən, vergi ödəyiciləri ilə münasibətləri daha da asanlaşdıran, bütünlükdə ölkənin iqtisadi mənzərəsini əks etdirən məlumatlandırıcı və maarifləndirici xarakter daşıyır. Hesabat dövründə verilişin 33 buraxılışı yayımlanmışdır.<br>Vergilər Nazirliyinin rəsmi internet səhifəsindən, o cümlədən səhifədəki məlumat və elektron xidmətlərdən istifadənin asanlaşdırılması və əhalinin bütün təbəqəsi üçün əlçatan olması məqsədilə İOS və Android sistemli smartfon tipli avadanlıqlar üçün müvafiq parametrləri özündə əks etdirən xüsusi proqram hazırlanmış və cari ilin noyabr ayından “PlayMarket" və "AppStore" servislərində yerləşdirilmişdir. Həmin proqram 8 bölmədən (haqqında, qanunvericilik, bəyannamə, e-xidmətlər, bir pəncərə, müraciətlər, yeniliklər və media) ibarətdir. | |

| | | | |
|---|---|---|---|
| | | Vergi qanunvericiliyi və inzibatçılığı, habelə vergi ödəyicilərindən daxil olan müraciətlər üzrə müəyyən edilən mövzular barədə vergi ödəyiciləri üçün onlayn qaydada təlimlərin keçirilməsi ilə bağlı Vergilər Nazirliyinin rəsmi internet səhifəsində "onlayn treninq" bölməsi hazırlanmışdır.<br>Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin xəbərlər blokunda 170 yeni məlumat yerləşdirilmişdir. Səhifənin “Qanunvericilik” bölməsində olan normativ-hüquqi sənədlərin yenilənməsi işləri mütəmadi olaraq davam etdirilir.<br>Vergi orqanları tərəfindən “İnsan hüquq və azadlıqlarının müdafiəsi, o cümlədən sahibkarların hüquqlarının müdafiəsinin daha da möhkəmləndirilməsi” mövzusunda 1962 vergi ödəyicisinin iştirakı ilə 69 görüş keçirilmişdir. Keçirilən görüşlərdə sahibkarların hüquqlarının qorunması istiqamətində görülən işlər, o cümlədən vergi ödəyicilərinin Vergi Məcəlləsi ilə təsbit edilmiş hüquq və vəzifələri, elektron xidmətlər, Vergilər Nazirliyinin Çağrı Mərkəzi, rəsmi internet səhifəsi, vergi ödəyicilərinə xidmət mərkəzləri, Vergi Apellyasiya Şurası və onun fəaliyyəti barədə görüş iştirakçılarına ətraflı məlumat verilmişdir.<br>Sahibkarlığın təşviqinə yönəlmiş vergi siyasətinin həyata keçirilməsi istiqamətində vergi qanunvericiliyi və vergi inzibatçılığı sahəsində vergi ödəyiciləri üçün zəruri informasiyanı əks etdirən 13 adda kiçik həcmli bukletlər, Vergilər Nazirliyinin 2013-2014-cü illər üzrə fəaliyyətini əks etdirən icmal jurnallar, “Vergi uşaqların gözü ilə” adlı jurnallar 99200 sayda (86500 Azərbaycan, 12700 İngilis dilində) nəşr etdirilmiş və vergi ödəyicilərinə çatdırılması üçün müvafiq tədbirlər görülmüşdür.<br>Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə əlaqədar “Daşınmaz əmlak satışının sadələşdirilmiş vergiyə cəlb edilməsi”, “Bina tikintisi ilə məşğul olan şəxslərin sadələşdirilmiş vergiyə cəlb edilməsi” və “Ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərin sadələşdirilmiş vergiyə cəlb edilməsi” mövzuları üzə 3 yeni buklet hazırlanmışdır.<br>Hesabat dövründə vergi ödəyicilərinin vergi qanunvericiliyi və inzibatçılığı ilə bağlı bilik və bacarıq səviyyələrinin yüksəldilməsi, hüquq və vəzifələri barədə maarifləndirilməsi məqsədi ilə “Vergilər” qəzetində mütəmadi şəkildə materiallar dərc edilmiş, maarifləndirici rubrikaların aparılması təmin edilmişdir. Qəzetdə Vergilər Nazirliyinə daxil olmuş vətəndaş müraciətləri ilə bağlı xüsusi rubrikada vətəndaşlardan daxil olan ayrı-ayrı müraciətlər və | |

| | | | | |
|---|---|---|---|---|
| | | onlara baxılması vəziyyəti işıqlandırılmışdır. “İnteraktiv vergi xidmətləri” rubrikasında isə vergi ödəyicilərinə göstərilən elektron xidmətlər və onlardan istifadə imkanları barədə geniş maarifləndirici məlumatlar verilmişdir. Eyni zamanda “Hüquq məsləhətxanası” rubrikasında vergi sahəsinə dair ayrı-ayrı məsələlərlə bağlı izahat xarakterli materiallar dərc edilmişdir.<br>Bunlarla yanaşı, “Vergilər” qəzetində, “Azərbaycanın vergi jurnalı”nda vergi ödəyicilərinin hüquqlarına həsr olunmuş ayrı-ayrı materiallar hazırlanmış, xüsusilə İnsan Hüquqları üzrə Müvəkkilin təşəbbüsü ilə cari ilin may ayının 18-dən iyun ayının 18-dək respublikada keçirilən “İnsan Hüquqları aylığı” çərçivəsində “Vergilər” qəzetində vergi ödəyicilərinin hüquqlarının müdafiəsinə həsr edilmiş silsilə məqalələr: 13 may 2015-ci il tarixdə “Vergiləri vaxtında ödəmək hər kəsin vətəndaşlıq borcudur”, “Vergi hüquq münasibətləri və onun növləri”, “Əsas məqsəd işçilərin hüquqlarının bərpası və qorunmasıdır”, “Elektron ticarət və istehlakçı hüquqları”, 20 may 2015-ci il tarixdə “Vergi ödəyiciləri üçün yeni innovativ xidmətlər” adlı vergi ödəyicilərinin hüquqlarından bəhs edən məqalələr dərc edilmişdir.<br>2015-ci il 27 may tarixdə “İnsan hüquqları aylığı” çərçivəsində Sabirabad şəhərində Saatlı və Sabirabad rayon gəncləri ilə “Dövlət vergi orqanlarına işə qəbulun vətəndaşların əmək və dövlətin idarə olunmasında iştirak etmək hüququnun həyata keçirilməsi mexanizmi kimi” mövzusunda keçirilən görüş barədə press-reliz hazırlanmış və nazirliyin rəsmi internet səhifəsində yayımlanmışdır.<br>Cari ilin sentyabr ayında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) təşəbbüsü ilə ənənəvi olaraq keçirilən “Sülh aylığı” çərçivəsində “Azərbaycanın vergi jurnalı” redaksiyası tərəfindən “Sosial-iqtisadi hüquqların müdafiəsi: dövlət və vətəndaş məsuliyyəti” mövzusunda dəyirmi masa keçirilmişdir. Tədbirdə İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanı), Konstitusiya Məhkəməsi, Ədliyyə Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti, Həmkarlar İttifaqları Konfederasiyası, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, AMEA-nın İnsan Hüquqları İnstitutu, AMEA-nın İqtisadiyyat İnstitutu, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu, Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu, Konstitusiya Araşdırmalar Fondu nümayəndələri və | |

| | | | |
|---|---|---|---|
| | | Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxsləri iştirak etmişlər. Tədbir KİV-də, “Vergilər” qəzetində və “Azərbaycanın vergi jurnalı”nda geniş işıqlandırılmışdır.<br>Hesabat dövründə “Azərbaycanda vergi sistemi: reallıqlar və perspektivlər” mövzusunda 2 günlük IV Vergi Forumu keçirilmişdir. Vergi ödəyiciləri ilə əməkdaşlığın mühüm formatlarından biri olan bu Forumda dövlət orqanlarının, Prezident Administrasiyasının, Milli Məclisin, Nazirlər Kabinetinin, digər dövlət orqanlarının, Milli Elmlər Akademiyasının müvafiq strukturlarının, BMT-nin, Avropa Birliyinin, Dünya Bankının, Beynəlxalq Maliyyə Korporasiyasının, Bakıda akkreditə olunmuş səfirliklərin, Rusiya, Türkiyə, Litva və Qazaxıstanın vergi xidməti orqanlarının, bankların, qeyri-hökumət təşkilatlarının, sahibkarların ictimai birliklərinin və kütləvi informasiya vasitələrinin nümayəndələri və iş adamları iştirak etmişlər. Şəffaflığın artırılması məsələləri də Forumun əsas müzakirə mövzuları sırasında olmuş, tədbir KİV-də geniş işıqlandırılmışdır.<br>Vergilər Nazirliyinin Tədris Mərkəzində “Azərbaycanın davamlı inkişafında vergi siyasətinin rolu” mövzusunda elmi-praktiki konfrans keçirilmişdir. Konfransda iqtisadçı alimlər, Vergilər Nazirliyinin, Milli Elmlər Akademiyasının müvafiq strukturlarının, ali təhsil müəssisələrinin, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişdir. Vergi xidmətində tətbiq edilən şəffaflıq mexanizmləri, vergi ödəyiciləri ilə kontaktsız münasibətlərin qurulması, elektron xidmətlərin inkişaf etdirilməsi konfransın müzakirə mövzuları sırasında olmuş, tədbir KİV-də geniş işıqlandırılmışdır.<br>Vergi orqanlarının fəaliyyətinin işıqlandırılması və geniş ictimaiyyətə çatdırılması məqsədilə hesabat dövründə “Vergilər” qəzetinin təşkilatçılığı ilə “Azərbaycanın vergi sistemi: 15 ilin uğurları və yeni çağırışların astanasında” mövzusunda dəyirmi masa keçirilmişdir. Tədbirdə Vergilər, İqtisadiyyat və Sənaye, Maliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi, Rabitə və Yüksək Texnologiyalar və Kənd Təsərrüfatı nazirliklərinin, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının məsul nümayəndələri iştirak etmiş, keçirilmiş tədbir KİV-də geniş işıqlandırılmışdır.<br>2015-ci il ərzində KİV üçün 144 press-reliz verilmiş, vergi orqanlarının rəhbər vəzifəli şəxslərinin 9 brifinqi keçirilmiş, KİV üçün ümumilikdə 195 müsahibə təşkil olunmuşdur. | |

| | | | |
|---|---|---|---|
| | | Eyni zamanda mərkəzi TV kanallarında vergilərə dair 580 süjet efirə verilmiş, internet saytlarında 4872, mərkəzi mətbuatda 2359 material dərc edilmişdir. Bundan başqa, regional TV-lərdə və yerli mətbuat orqanlarında ümumilikdə 323-dək süjet və material efirə verilmiş və dərc olunmuşdur.<br>Hesabat dövründə Vergilər Nazirliyinin keçirdiyi müxtəlif tədbirlər, eyni zamanda nazirliyin keçirdiyi bilik müsabiqələri və şahmat yarışları KİV nümayəndələri tərəfindən geniş işıqlandırılmışdır.<br>Vergilər Nazirliyinin yaradılmasının 15 illiyi ilə əlaqədar yerli KİV-də geniş informasiya kampaniyası aparılmış, aparıcı qəzetlərdə və saytlarda vergi sisteminin son 15 ildə keçdiyi inkişaf yolu barədə materiallar dərc etdirilmişdir. O cümlədən, “Xalq qəzeti”ndə 28 yanvar 2015-ci il tarixdə “Heydər Əliyev və müstəqil Azərbaycanın vergi sistemi”, “Palitra” qəzetində 30 yanvar 2015-ci il tarixdə “Təməli düzgün qoyulmuş vergi strategiyası uğurla davam etdirilir”, “Xalq qəzeti”ndə 5 fevral 2015-ci il tarixdə “İqtisadi inkişafa xidmət edən vergi sistemi”, “Respublika” qəzetində 7 fevral 2015-ci il tarixdə “Vergi ödəyicilərinin hüquqları və qanuni mənafeləri qorunur”, “Yeni Azərbaycan" qəzetində 12 fevral 2015-ci il tarixdə "Aparılan islahatlar Azərbaycanda dünya standartlarına uyğun mütərəqqi vergi sistemi qurulmasını təmin edib” adlı məqalələr dərc edilmişdir. Bununla yanaşı 10 fevral 2015-ci il tarixdə vergilər nazirinin “Azərbaycanda beynəlxalq standartlara cavab verən vergi sistemi qurulmuşdur” adlı məqaləsi hazırlanmış və “Azərbaycan” qəzetində dərc edilmişdir.<br>Vergilər Nazirliyinin yaradılmasının 15 illiyinə həsr olunmuş “Azərbaycanın Vergi Sistemi”, “Vergilər Nazirliyi 15 il - 2000-2015” adlı kitabları nəşr edilmiş və IV Vergi Forumunda ictimaiyyətə təqdim edilmişdir. Eyni zamanda 15 illiyə həsr olunmuş qısametrajlı sənədli film hazırlanmış və IV Vergi Forumunda ictimaiyyətə təqdim edilmişdir.<br>Vergilər Nazirliyinin yaradılmasının 15 illiyi münasibətilə “Vergilər” qəzetinin və “Azərbaycanın vergi jurnalı”nın xüsusi buraxılışları 9 fevral 2015-ci il tarixində nəşr edilmişdir.<br>Vergilər Nazirliyinin rəhbərliyinin Dünya Bankı, ABŞ Yayım Şurası, İSESCO-nin rəhbər vəzifəli şəxsləri, xarici ölkələrin vergi xidməti administrasiyalarının (Rusiya, Türkiyə, Qazaxıstan) rəhbərliyi ilə görüşləri barədə press-relizlərin hazırlanması və KİV-ə ötürülməsi təmin edilmişdir. | |

| | | | |
|---|---|---|---|
| | | Vergilər Nazirliyi tərəfindən həyata keçirilən islahatlar və elektron xidmətlərin təqdim olunması, dövlət-biznes münasibətləri haqqında vergilər nazirinin “The Business Year” jurnalı üçün növbəti müsahibənin bir sıra hissələri yerli KİV-də dərc edilmişdir.<br>Hesabat dövründə KİV-dən yazılı və şifahi qaydada daxil olmuş 200-dən yuxarı sorğu cavablandırılmışdır.<br>Vergi borcu olan vergi ödəyicilərinin əmlaklarının siyahıya alınması prosesi üzrə və vergi hüquqpozmaları ilə mübarizəyə həsr olunmuş videoçəkilişlər aparılmış və bununla bağlı telekanallarda 86 süjet efirə verilmişdir.<br>Vergi bəyannamələrinin təqdim edilməsi ilə bağlı ictimaiyyətin geniş məlumatlandırılması üçün hesabat dövründə reklam çarxları hazırlanaraq onların müxtəlif televiziya kanallarında və elektron KİV-də (“www.1news.az” və “www.trend.az” saytlarında 25% trafiklə) verilməsi təmin edilmişdir.<br>Gəlir vergisinin və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə ərizələrin elektron qaydada qəbul edilməsi imkanı yaradılması məqsədilə “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlərin göstərilməsi Qaydaları”nın və “Elektron xidmət növlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında dəyişikliklərin edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı”nın layihəsi hazırlanmışdır. Qeyd olunan qərar layihəsinə baxılaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 mart 2015-ci il tarixli 97 nömrəli qərarı ilə “Elektron xidmət növlərinin Siyahısı”na müvafiq dəyişiklik edilmişdir.<br>Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 mart 2015-ci il tarixli 97 nömrəli qərarı ilə 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarda dəyişikliklər edilərək Vergilər Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərin sayı 62-yə çatdırılmış və siyahıya 2 yeni xidmət əlavə edilmişdir:<br>- Çağrı Mərkəzi vasitəsilə “Sadələşdirilmiş verginin bəyannaməsi”nin təqdim edilməsi;<br>- gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə ərizələrin qəbulu.<br>Bunlarla yanaşı “Onlayn kargüzarlıq” sistemində onlayn formada tərtib | |

| | | | | |
|---|---|---|---|---|
| | | edilən ərizələr sırasına yeni ərizə formaları əlavə edilmiş və onların sayı 33-ə çatdırılmışdır.<br>2015-ci il ərzində vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması və xidmət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi ilə əlaqədar bir sıra layihələr həyata keçirilmiş, o cümlədən Vergi ödəyicilərinə xidmət mərkəzlərinin 33-də növbə və qeydiyyat aparatlarının, səsyazma və video müşahidə qurğularının, kompüter avadanlıqlarının quraşdırılması təmin edilmişdir.<br>Sahibkarlıqla məşğul olan şəxslərin məlumatlandırılması və vergi öhdəliklərinin yerinə yetirilməsinə əlverişli şəraitin yaradılması məqsədi ilə vergi ödəyicilərinə xidmət mərkəzlərinin şəbəkəsi genişləndirilərək Ucar və Zərdab rayonlarında müasir tələblərə cavab verən vergi ödəyicilərinə xidmət mərkəzlərinin tikintisi başa çatdırılmış və 14 may 2015-ci il tarixdən etibarən vergi ödəyicilərinin istifadəsinə verilmişdir.<br>Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədilə 2015-ci ildə Vergilər Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərin çeşidinin artırılması və təkmilləşdirilməsi istiqamətində aşağıdakı işlər yerinə yetirilmişdir:<br>- fərdi sahibkarların e-qeydiyyat sistemi vasitəsilə 2015-ci ildə fiziki şəxslərin vergi uçotuna alınması təmin edilmiş və ötən dövrdə ümumilikdə 83 288 fərdi sahibkar elektron qaydada qeydiyyata alınmışdır;<br>- bu qayda ilə kommersiya hüquqi şəxslərin e-qeydiyyat sistemi vasitəsilə ümumilikdə 9541 yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyət dövlət qeydiyyatına alınmışdır ki, onlardan 2496-nın qeydiyyatı cari ildə həyata keçirilmişdir. Elektron qaydada aparılmış qeydiyyatın xüsusi çəkisi kommersiya hüquqi şəxslər üzrə 46,1%, məhdud məsuliyyətli cəmiyyətlər üzrə isə 48,3% olmuşdur;<br>- Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının Qərarı ilə “Kommersiya hüquqi şəxslərin onlayn qeydiyyatı” və “Fərdi sahibkarların onlayn qeydiyyatı” elektron xidmətləri üzrə inzibati reqlamentlərdə edilmiş dəyişikliklərin Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi təmin edilmişdir;<br>- “Fəaliyyətinə xitam verilmiş fiziki şəxsin fəaliyyətinin bərpa edilməsi”, “Fiziki şəxsin vergi uçotundan çıxarılması haqqında” ərizələrin elektron | |

| | | | |
|---|---|---|---|
| | | şəkildə vergi orqanına təqdim edilməsi üzrə müvafiq proqram təminatları hazırlanaraq istifadəyə verilmişdir;<br>- banklar və digər kredit təşkilatları ilə vergi orqanları arasında inteqrasiyanın genişləndirilməsi istiqamətində “Ziraat Bank Azərbaycan” ASC vergi orqanları ilə bank idarələri arasında elektron sənəd mübadiləsini tənzimləyən “Kollektiv Saziş”ə qoşulmuş və cari ilin iyun ayının 25-dən etibarən bank hesablarının açılması üçün şəhadətnamə-dublikatların və hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması üçün sərəncamların elektron formada mübadiləsinə başlanılmışdır;<br>- informasiya əldə edilməsi üçün aidiyyəti dövlət qurumları ilə inteqrasiyanın genişləndirilməsi və təkmilləşdirilməsi sahəsində hesabat dövründə “Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Vergilər Nazirliyinin “Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi”ndən istifadə reqlamenti haqqında”, “Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi ilə Vergilər Nazirliyinin elektron informasiya sistemləri arasında qarşılıqlı məlumat mübadiləsi haqqında”, “Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Azərbaycan Respublikası Vergilər Nazirliyinin “Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi”ndən istifadə edilməsi reqlamenti haqqında” Razılaşmalar imzalanmışdır;<br>- rüsumların, vergilərin, inzibati cərimələrin və digər ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi sayəsində vergi ödəyiciləri tərəfindən hesabat dövründə 1 313 478 ödəniş üzrə 443 milyon 79,2 min manat məbləğində ödəniş edilmişdir. | |
| **Fəsil 3. Dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi** | | | |
| 3.2. | Korrupsiya ilə mübarizənin gücləndirilməsi potensialının artırılması, milli mexanizmlərin inkişafı, habelə bu sahədə institusional islahatların davam etdirilməsi | 2015-ci ildə ilkin hazırlıq və ixtisasartırma kurslarının tədris-mövzu planlarına “Korrupsiya hüquqpozmaları. Korrupsiyaya qarşı mübarizə istiqamətində maarifləndirmə və əməkdaşlıq” adlı mövzu daxil edilmişdir. Hesabat dövründə həmin mövzunun ilkin hazırlıq və ixtisasartırma kurslarının 311 nəfər dinləyicisi üçün tədrisi təşkil edilmişdir.<br>Eyni zamanda, 19 iyun 2015-ci il tarixdə “Korrupsiyaya qarşı mübarizə, etik davranış, maraqlar toqquşması və məlumat azadlığı məsələləri” və 30 oktyabr 2015-ci il tarixdə “Korrupsiyaya qarşı mübarizə, maraqların | Mütəmadi |

| | | | |
|---|---|---|---|
| | | toqquşması, etik davranış və vergi orqanlarında daxili nəzarət sisteminin tətbiqi vəziyyəti" mövzularında treninqlər təşkil olunmuş və treninqlərdə 30 nəfər vergi orqanı əməkdaşı iştirak etmişdir.<br>Vergilər Nazirliyi tərəfindən 2015-ci ilin tədris-mövzu proqramlarına daxil edilməsi üçün 3 mövzu, “Korrupsiyaya qarşı mübarizə, etik davranış, maraqların toqquşması və məlumat azadlığı məsələləri”, “Daxili nəzarət tədbirləri nəticəsində vergi orqanı əməkdaşlarının xidməti vəzifələrinin icrasında aşkar olunan nöqsan və pozuntular” və “Vergi orqanlarında daxili nəzarət sisteminin tətbiqi vəziyyəti” mövzuları müəyyənləşdirilmiş və Vergilər Nazirliyinin Tədris-metodiki Şurasına təqdim edilmişdir.<br>Bu mövzular Vergilər Nazirliyinin 2015-ci il üçün illik tədris (təlim) qrafikinin təsdiq edilməsi barədə əmrinə daxil edilmiş və 2015-ci ilin 24 aprel, 19 iyun və 30 oktyabr tarixlərində orta menecerlər və mütəxəssislər qrupuna aid edilən əməkdaşlar və daxili nəzarət qruplarının rəhbərləri üçün təlimlərin keçirilməsi təmin edilmişdir.<br>Vergi ödəyicilərinin hüquqlarının müdafiəsi və anti-korrupsiya sahəsində maarifləndirmə işlərinin aparılması məqsədilə Vergilər Nazirliyi tərəfindən yerlərdə sahibkarlarla görüşlər keçirilmişdir.<br>Korrupsiyaya qarşı mübarizə sahəsində vətəndaşları maarifləndirmək məqsədilə Vergilər Nazirliyi tərəfindən yeni tərtibatda buklet layihəsi hazırlanmış və əhali arasında paylanması təmin edilmişdir.<br>“Şəffaflıq Azərbaycan” Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyinin (“Transparency International Azerbaijan”) “Korrupsiya hallarını ifşa edən şəxslərin qorunması” mövzusunda 29 aprel 2015-ci il tarixində Beynalxalq Mətbuat Mərkəzində keçirilən dəyirmi masada Vergilər Nazirliyinin əməkdaşının iştirakı təmin edilmişdir.<br>Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) tərəfindən Macarıstan Respublikasının paytaxtı Budapeşt şəhərində 2015-ci ilin 4-6 fevral tarixlərində “ƏDV fırıldaqçılığına qarşı mübarizə: Ən yaxşı təcrübə” mövzusunda, 11-13 mart tarixlərində “Vergidən yayınma hallarının müəyyənləşdirilməsində İT vasitələrindən və Forensic məlumat bazasından istifadə” mövzusunda, 18-20 mart tarixlərində “Vergi ödəyiciləri ilə vergi orqanları arasında etimadın möhkəmləndirilməsində Medianın rolu” mövzusunda, 17-19 iyun tarixlərində “Elektron ticarət sahəsində vergidən | |

| | | | |
|---|---|---|---|
| | | yayınmaya qarşı mübarizədə inzibati əməkdaşlıq və informasiya mübadiləsinin rolu” mövzusunda və 20-22 oktyabr tarixlərində Gürcüstanın paytaxtı Tbilisi şəhərində “ƏDV saxtakarlığının və vergidən yayınmanın yeni seqmentlərini və sahələrini müəyyən etmək üçün kəşfiyyat və araşdırmadan səmərəli istifadə” mövzusunda keçirilən seminarlarda, həmçinin 2015-ci ilin 15-17 aprel tarixlərində Polşa Respublikasının Krakov şəhərində “ƏDV saxtakarlığına qarşı mübarizə Forumu”nda nazirliyin əməkdaşları iştirak etmişdir.<br>Eyni zamanda 2015-ci ilin 30 mart - 3 aprel tarixlərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən “Vergi və Cinayət: Qanunsuz maliyyə axınlarına qarşı mübarizə” mövzusunda seminarda nazirliyin əməkdaşları iştirak etmişdir.<br>2015-ci ilin 4-8 may tarixlərində Vergilər Nazirliyinin nümayəndə heyətinin “İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək” adlı Tvinninq layihəsinin işçi planına uyğun olaraq İspaniya Krallığının Maliyyə Nazirliyinin Vergi Tədqiqatları İnstitutunun dəvəti ilə Madrid şəhərinə səfəri təşkil edilmişdir. Səfərin əsas mövzusu dövlət vergi orqanı əməkdaşlarının idarə edilməsi, o cümlədən onların təlimlərinin təşkili sahəsində İspaniya təcrübəsinin öyrənilməsi olmuşdur. 5-9 oktyabr tarixlərində isə “İnsan resurslarının inkişafı üzrə Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək” Tvinninq Layihəsi çərçivəsində “Fransa Respublikası Baş Dövlət Maliyyə Direktorluğunun insan resursları üzrə idarəetmə işinin təşkili” mövzusunda təcrübə mübadiləsi məqsədilə Vergilər Nazirliyinin əməkdaşlarından ibarət nümayəndə heyəti Fransa Respublikasına səfər etmişdir.<br>Cari ilin 22 sentyabr tarixində Vergilər Nazirliyinin nümayəndə heyəti ilə Avropa Şurasının İqtisadi Cinayətlər və Əməkdaşlıq Şöbəsinin rəsmiləri arasında görüş keçirilmişdir. Görüşün keçirilməsində məqsəd Vergilər Nazirliyinin Tədris Mərkəzinə etik davranış qaydaları, korrupsiya ilə mübarizə mövzuları üzrə proqramın hazırlanması və müvafiq təlimlərin təşkil edilməsi üçün dəstək göstərilməsi olmuşdur.<br>Hesabat ilinin 29 oktyabr tarixində Vergilər Nazirliyinin nümayəndə heyəti ilə Avropa Şurasının İqtisadi Cinayətlər və Əməkdaşlıq Şöbəsinin müşaviri Edmond Dunqa arasında görüş keçirilmişdir. Görüşün keçirilməsində | |

| | | | |
|---|---|---|---|
| | | məqsəd Vergilər Nazirliyinin Avropa Şurası/Avropa İttifaqının “Azərbaycanda korrupsiya ilə mübarizə və onun qarşısının alınması sahəsində bacarıqların artırılmasına dəstək” layihəsinə cəlb olunması və əməkdaşlıq prioritetlərinin müəyyən edilməsi olmuşdur.<br>2015-ci ildə dövlət vergi orqanlarına işə qəbul üzrə keçirilmiş müsabiqədə 70 nəfər şəxs dövlət vergi orqanlarında olan analoji vakant vəzifələrə stajçı qismində təyin edilmiş və bu barədə məlumatlar Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin müvafiq bölməsində yerləşdirilmişdir.<br>Regionlarda yaşayan gənclərin dövlət vergi orqanlarına işə qəbul qaydaları və şərtləri üzrə maarifləndirilməsi məqsədi ilə 27 may 2015-ci il tarixdə Sabirabad rayonunda Sabirabad və Saatlı rayonunun gəncləri ilə “Dövlət vergi orqanlarına işə qəbul vətəndaşların əmək və dövlətin idarə olunmasında iştirak hüququnun həyata keçirilməsi mexanizmi kimi” mövzusunda görüş təşkil edilmişdir. Görüşdə Sabirabad Rayon İcra Hakimiyyətinin və Sabirabad Rayon Gənclər və İdman İdarəsinin nümayəndələri, Sabirabad və Saatlı rayonunun ümumilikdə 90 nəfər ali təhsilli gənci iştirak etmişdir. Görüş zamanı gənclərə dövlət qayğısı, onların məşğulluğunun təmini, eləcə də dövlətin idarə olunmasında gənclərin rolunun artırılması sahəsində ölkəmizdə həyata keçirilən tədbirlər, Vergilər Nazirliyi tərəfindən dövlət vergi orqanlarına işə qəbul üzrə müsabiqələrin keçirilməsi qaydaları, müsabiqələrdə obyektivliyin, şəffaflığın və peşəkarlığın təmini istiqamətində görülən işlər, nazirlikdə gənc kadrların inkişafı üçün yaradılmış imkanlar, konstitusion hüquqlar olan əmək hüququ və dövlətin idarə olunmasında iştirak hüququnun mahiyyəti və nazirlik tərəfindən həyata keçirilən müsabiqələrin bu hüquqların təminində rolu barədə tədbir iştirakçılarına geniş məlumat verilmişdir.<br>Həmçinin hesabat dövründə dövlət vergi orqanlarında olan vəzifələr üzrə özündə ətraflı məlumatları (vəzifə funksiyaları, iş yerinin ünvanı, vəzifə maaşı, eləcə də vəzifənin tutulması şərtləri (təhsilə, staja, xarici dil və kompüter biliklərinə, zəruri bacarıq və qabiliyyətlərə dair tələblər) əks etdirən 247 vəzifə təlimatı müvafiq struktur dəyişiklikləri və tələbatlara uyğun olaraq yenidən işlənilmiş və təsdiq olunmuşdur.<br>Qeyd edilən vəzifə təlimatları nazirliyin internet səhifəsində yerləşdirilərək ictimaiyyətə açıq elan edilmişdir. Vəzifə təlimatında göstərilən | |

| | | | |
|---|---|---|---|
| | | məlumatlar vətəndaşa dövlət vergi orqanlarına işə qəbul üzrə müsabiqələr elan olunan zaman onların marağına və potensialına uyğun olan, o cümlədən tutulması şərtlərinə cavab verdiyi vəzifəni seçməyə imkan verir. | |